

# QADINLARA QARŞI ZORAKILIQ VƏ MƏİŞƏT ZORAKILIĞININ QARŞISININ ALINMASI VƏ ONA QARŞI MÜBARİZƏ HAQQINDA AVROPA ŞURASI KONVENSİYASI

İstanbul Konvensiyası

**QORXUDAN AZAD**
**ZORAKILIQDAN AZAD**

Translation co-funded by the European Union

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE



## KONVENSİYANIN MƏQSƏDİ NƏDƏN İBARƏTDİR?

Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Avropa Şurası Konvensiyası insan hüquqlarının bu ciddi pozuntusu ilə mübarizədə ən əhatəli beynəlxalq müqavilədir. Konvensiya bu cür zorakılığa dözümlülüyü sıfra endirmək məqsədi daşıyır və Avropanın və onun xaricindəki ərazilərin zorakılıqdan daha azad olması istiqamətində irəliyə doğru mühüm addımdır.

Zorakılığın qarşısının alınması, qurbanların müdafiəsi və qanunpozucularının məsuliyyətə cəlb edilməsi Konvensiyanın təməl daşını təşkil edir. Konvensiya, həm də cəmiyyətin bütün üzvlərini, xüsusilə də kişiləri və oğlanları öz yanaşmalarını dəyişməyə çağırmaqla insanların hislərini və şüurlarını dəyişdirmək məqsədi daşıyır. Mahiyyət etibarilə bu, qadınlarla kişilər arasında daha çox bərabərliyə nail olmaq istiqamətində yenilənmiş çağırışdır, çünki qadınlara qarşı zorakılığın kökü dərindədir və cəmiyyətdə qadınlarla kişilər arasında bərabərsizlikdən qaynaqlanır və dözümlülük və inkarçılıq ənənəsi vasitəsi ilə əbədiləşdirilir.

## KONVENSİYANIN YENİLİK XARAKTERLİ XÜSUSİYYƏTLƏRİ

Konvensiya qadınlara qarşı zorakılığı insan hüquqlarının pozulması və ayrı-seçkilik forması kimi qəbul edir. Bu o deməkdir ki, dövlətlər bu cür zorakılığa qarşı adekvat reaksiya göstərmədiyi təqdirdə məsuliyyət daşıyırlar.

Konvensiya genderin tərifini ehtiva edən ilk beynəlxalq müqavilədir. Bu o deməkdir ki, kişilər və qadınlar təkcə bioloji cəhətdən kişi və qadın kimi müəyyən edilmirlər, həm də sosial cəhətdən kişi və qadınların konkret rollarını və davranışlarını müəyyən edən gender kateqoriyası mövcuddur. Araşdırmalar göstərir ki, müəyyən rollar və davranışlar qadınlara qarşı zorakılığın qəbuledilən sayılmasına şərait yarada bilər.

Konvensiya qadın sünnəti, məcburi nikah, cinsi təqib (stalking), məcburi abort və məcburi sterilizasiya kimi hüquq pozuntularını kriminallaşdırır. Bu o deməkdir ki, dövlətlər ilk dəfə bu ciddi hüquq pozuntularını öz hüquq sistemlərinə daxil etməyə borcludurlar.

Konvensiya qadınlara qarşı zorakılıq və məişət zorakılığı əleyhinə mübarizənin əlaqələndirilmiş şəkildə aparılması üçün bütün əlaqədar dövlət qurumlarının və xidmətlərinin bu mübarizədə iştiraka cəlb edilməsinə çağırır. Bu o deməkdir ki, dövlət qurumları və QHT-lər təkbaşına fəaliyyət göstərməməli, əməkdaşlıq mexanizmləri işləyib hazırlamalıdırlar.

# KONVENSİYA DÖVLƏTLƏRDƏN NƏ TƏLƏB EDİR?



## QABAQLAMA

- qadınlara qarşı zorakılığı məqbul sayan yanaşmaları, gender rollarını və stereotiplərini dəyişmək;
- qurbanlarla işləyən mütəxəssislərə təlim keçmək;
- zorakılığın müxtəlif formaları və onların travmatik xarakteri barədə məlumatlılığı artırmaq;
- bərabərlik məsələlərinə dair tədris materiallarını təhsilin bütün səviyyələrində tədris proqramlarına daxil etmək;
- ictimaiyyətlə əlaqələrin qurulması üçün QHT-lər, media və özəl sektorla əməkdaşlıq etmək.

## MÜDAFİƏ

- bütün tədbirlərin mərkəzində qurbanların ehtiyaclarının və təhlükəsizliyinin dayanmasını təmin etmək;
- qurbanlara və onların uşaqlarına tibbi yardım göstərən, habelə psixoloji və hüquqi məsləhətlər verən ixtisaslaşmış dəstək xidmətləri təşkil etmək;
- yetərli sayda sığınacaqlar və fasiləsiz (7/24 saat) ödənişsiz xidmət göstərən qaynar xətlər təşkil etmək.

## CİNAYƏT TƏQİBİ

- qadınlara qarşı zorakılığın kriminallaşdırılmasını və müvafiq qaydada cəzalandırılmasını təmin etmək;
- hər hansı zorakılıq aktına mədəniyyət, adət, din və ya “şərəf” anlayışı ilə bəraət qazandırılmasının qəbuledilməzliyini təmin etmək;
- istintaq və məhkəmə icraatı zamanı zərər çəkmiş şəxslərin (qurbanların) təhlükəsizliyinin təmin edilməsi üçün nəzərdə tutulan tədbirlərdən yararlanmaq imkanına malik olmasını təmin etmək;
- hüquq-mühafizə orqanlarının yardım üçün müraciətlərə dərhal reaksiya göstərməsini və təhlükəli vəziyyətlərin öhdəsindən adekvat şəkildə gələ bilməsini təmin etmək.

## ƏLAQƏLƏNDİRİLMİŞ SİYASƏTLƏR

- yuxarıdakı tədbirlərin hərtərəfli və əlaqələndirilmiş siyasətlərin tərkib hissəsini təşkil etməsini və qadınlara qarşı zorakılığa və məişət zorakılığına dolğun cavab reaksiyası verməsini təmin etmək.



## KONVENSİYA KİMLƏRİ ƏHATƏ EDİR?

Konvensiya yaşından, irqindən, dinindən, sosial mənşəyindən, miqrant statusundan və ya cinsi oriyentasiyasından asılı olmayaraq istənilən mənşəli bütün qadınları və qızları əhatə edir. Konvensiyaya görə, elə qadın və qız qrupları vardır ki, onların zorakılığa məruz qalması riski daha çoxdur və dövlətlər onların xüsusi ehtiyaclarının nəzərə alınmasını təmin etməlidirlər. Konvensiya, dövlətləri məişət zorakılığının digər qurbanlarına, məsələn, kişilərə, uşaqlara və ahıllara da şamil etməyə təşviq edir.

## KONVENSİYA HANSI ƏMƏLLƏRİ KRİMİNALLAŞDIRIR?

Konvensiya tələb edir ki, iştirakçı dövlətlər aşağıdakı əməlləri kriminallaşdırsınlar və ya onlara hər hansı digər formada sanksiya tətbiq etsinlər:

- məişət zorakılığı (fiziki, cinsi, psixoloji və ya iqtisadi zorakılıq);
- cinsi təqib (stalking);
- cinsi zorakılıq, o cümlədən zorlama;
- cinsi qısnama;
- məcburi nikah;
- qadın sünnəti;
- məcburi abort və məcburi sterilizasiya.

Qeyd olunanlar qadınlara qarşı zorakılıq və məişət zorakılığının şəxsi məsələ olmadığını açıq şəkildə göstərir. Əksinə, qurban ər, cinsi tərəf müqabili və ya ailə üzvü olduğu təqdirdə ailə daxilindəki cinayətlərin xüsusi travmatik təsirlərini vurğulamaq üçün təqsirləndirilən şəxsə daha ağır cəza təyin edilə bilər.



## KONVENSİYANIN İCRASININ MONİTORİNQİ NECƏ APARILIR?

Konvensiyaya əsasən, onun müddəalarının təcrübədə tətbiqinin qiymətləndirilməsi üçün monitorinq mexanizmi yaradılır. Bu monitorinq mexanizmi iki qurumdan ibarətdir: müstəqil ekspertlər qrupu olan Qadınlara qarşı zorakılığa və məişət zorakılığına qarşı fəaliyyət üzrə ekspertlər qrupu (GREVIO) və Konvensiyanın iştirakçısı olan dövlətlərin rəsmi nümayəndələrindən təşkil edilən Tərəflərin Komitəsi. Onların rəy və tövsiyələri dövlətlərin Konvensiyaya riayət etmələrinin və onun uzunmüddətli səmərəliliyinin təmin edilməsinə kömək edir.

Prems 124114

www.coe.int/conventionviolence
conventionviolence@coe.int

AZE

www.coe.int

Avropa Şurası qitənin insan hüquqlarını müdafiə edən aparıcı təşkilatıdır. Avropa İttifaqına üzv olan bütün dövlətlər daxil olmaqla, təşkilat 47 üzv dövlətdən ibarətdir. Avropa Şurasının bütün üzv dövlətləri insan hüquqları, demokratiya və qanunun aliliyini qorumağı nəzərdə tutan Avropa İnsan Hüquqları Konvensiyasını imzalamışdır. Avropa İnsan Hüquqları Məhkəməsi Konvensiyanın üzv dövlətlərdə tətbiq edilməsinə nəzarət edir.

Translation co-funded by the European Union

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Bu tərcümə Avropa İttifaqının və Avropa Şurasının birgə maliyyələşdirdiyi "Azərbaycanda İstanbul Konvensiyası və digər gender bərabərliyi standartlarına dair məlumatlılığın artırılması" layihəsi çərçivəsində hazırlanıb. Burada ifadə olunan fikirlər hər iki tərəfin rəsmi mövqeyini əks etdirməyə bilər.